Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.

Heydər Əliyev.



# GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 19-21 (9251-9253) | 22 noyabr 2017-ci il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

# İSRAİLİN SƏFİRİ QAZAX RAYONUNDA OLMUŞDUR









**İsrail dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav rayonumuza səfər etmişdir. Səfərdə nümayəndə heyətinin üzvləri missiya rəhbərinin müavini xanım Avital Rozenberq və Səfirliyin İctimai Diplomatiya Məsələləri üzrə köməkçisi Sahilə Mustafayeva iştirak etmişdir.**

Qazax rayon İcra Hakimiyyətində qonaqlar səmimi qarşılandıqdan sonra görüş keçirilmişdir. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov nümayəndə heyətini salamlayaraq onları Qazaxda görməkdən mənmunluq hissi keçirdiyini bildirmişdir. Qeyd etmişdir ki, bu görüşün ölkələrimiz arasındakı dostluq əlaqələrinin möhkəmlənməsində, eləcə də Qazax rayonu ilə olan əlaqələrin genişlənməsində böyük əhəmiyyəti vardır. İki ölkə arasında olan qarşılıqlı əməkdaşlıq münasibətlərindən söz açan Rəcəb Babaşov qonaqlara Qazax rayonunun tarixi, işğal olunmuş kəndləri, şəhidləri, iqtisadiyyatı, sənayesi və mədəni həyatı barədə geniş məlumat verərək rayonun dahi şairlər və yazıçılar məkanı olduğunu söyləmişdir.

Səfir Dan Stav çıxış edərək səmimi qəbula və mehriban qarşılanmaya görə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz minnətdarlığını bildirmişdir. Qeyd etmişdir ki, mən ilk dəfədir ki, Qazax rayonunda oluram. Sizin verdiyiniz məlumatdan mən belə anladım ki, Qazaxda kənd təsərrüfatı və sənaye sürətlə inkişaf edir və bunun üçün Sizin rayonda münbit şərait vardır. Ümid edirəm ki, mənim Qazax rayonuna səfərim səmərəli olacaq və gələcəkdə öz bəhrəsini verəcəkdir.

Sonra səfir və rayon rəhbərliyi bir-birinə hədiyyələr təqdim etmişlər. Görüş başa çatdıqdan sonra qonaqlar ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək heykəli önünə gül dəstələri qoymuş əziz xatirəsini yad etmişlər.

Qazax Tarix-Diyarşünaslıq Muzeyində olan qonaqlara rayonumuzun tarixi keçmişi, bu günü, tanınmış elm və incəsənət xadimləri, tarixi abidələri barədə geniş məlumat verilmişdir. Muzeylə yaxından tanış olan səfir Dan Stav burada olan eksponatları yüksək qiymətləndirmiş və xatirə kitabına öz ürək sözlərini yazmışdır.

Fəxri qazaxlılar parkı ilə tanışlıq da qonaqlarda xoş təəssürat oyatmışdır.

Şəhidlər Xiyabanında səfirə rayonumuzun işğal altında olan kəndləri və torpaqlarımızın ərazi bütövlüyü uğrunda qəhrəmancasına canlarından keçmiş şəhidlərimiz, onların göstərdikləri şücaətlər haqqında məlumat verilmişdir. Qeyd edilmişdir ki, düşmənlə 168 km sərhəddə yerləşən Qazax rayonunun 7 Milli Qəhrəmanı və 283 şəhidi var. Şəhidlər Xiyabanı ilə tanışlıq zamanı günahsız insanların, xüsusilə də körpə uşaqların qətlə yetirilməsi səfirdə kədər və böyük təəssüf hissi yaratmışdır.

Cümə məscidində olan qonaqlara ölkəmizdə bütün dinlərə hörmət hissi ilə yanaşıldığı, Azərbaycanda multikultural dəyərlərə çox böyük önəm verildiyi diqqətə çatdırılmışdır.

Daha sonra səfir Dan Stav və nümayəndə heyəti rayonumuzda fəaliyyət göstərən istehsalat müəssisəsi olan Konserv Zavodunda olmuş, müəssisənin iş şəraiti və texnologiyası ilə tanış olaraq istehsal olunan məhsulların keyfiyyəti ilə maraqlanmışdır.

Günün ikinci yarısında isə qonaqlar rayonun Birinci Şıxlı, Aslanbəyli və Daş Salahlı kəndlərində olmuşlar.

Birinci Şıxlı kəndli-fermer təsərrüfatında olan qonaqlara müəssisə haqqında ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, ötən ilin oktyabr ayında Prezident İlham Əliyevin xeyir-duası ilə istifadəyə verilən müəssisə keçən 1 il müddət ərzində xeyli sayda işlər görmüşdür. Təsərrüfatda olan müasir texnika və həyata keçirilən aqrotexniki tədbirlər nəticəsində əkin sahələri genişləndirilmiş, bol məhsuldarlıq əldə edilmiş, yüzlərlə insan işlə təmin olunmuşdur.

Aslanbəyli kəndində Hacı Mahmud Əfəndi türbəsini ziyarət edən qonaqlar kəndin, eləcə də ziyarət ocağının tarixi ilə maraqlanmışlar.

Daş Salahlı kəndində Damcılı mağarasına baxan səfir Dan Stava bu tarixi abidə haqqında geniş məlumat verilmişdir. Sonra çay süfrəsi ətrafında səmimi söhbət olmuşdur.

Səfərin sonunda İsrail dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stav səmimi qəbula və qonaqpərvərliyə görə bir daha Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova öz minnətdarlığını bildirmiş və yaranan bu isti münasibətin gələcəkdə davam etdiriləcəyini qeyd etmişdir.

**Elçin İSMAYIL**










9 NOYABR - DÖVLƏT BAYRAĞI GÜNÜDÜR

## Dövlət bayrağı tarixi keçmişimizin, milli varlığımızın təcəssümüdür




**Qazax rayonunda 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə tədbir keçirilmişdir. Rayon İcra Hakimiyyətində keçirilən tədbirdə RİHB Aparatının məsul işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri, ağsaqqallar, ziyalılar, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.**

Tədbir iştirakçıları öncə ulu öndər Heydər Əliyevin adını daşıyan parka gələrək abidəsi önünə gül dəstələri qoymuş, əziz xatirəsini böyük ehtiramla yad etmişlər.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə bütün tədbir iştirakçılarını təbrik etmişdir. Qeyd etmişdir ki, ilk dəfə Azərbaycan bayrağı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisində qəbul edilmişdir. Ümummilli lider bayrağımız haqqında deyirdi: "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də, gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun".

Ulu öndərin əsasını qoyduğu siyasət bu gün də davam etdirilir. Respublika Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" imzaladığı Sərəncam bunun ən bariz nümunəsidir. Bu sərəncama əsasən hər il noyabr ayının 9-u ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd olunur. Dövlət Bayrağı Günü kimi məhz bu tarixin seçilməsi müstəqil Azərbaycanın Demokratik Cümhuriyyətimizin varisi olaraq öz tarixinə xüsusi önəm verdiyini bir daha sübut etdi. Bununla da Azərbaycanın hər bir regionunda bayraq meydanlarının yaradılması kimi bir ənənənin əsası qoyulmuş oldu.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov bildirmişdir ki, Qazaxda da Dövlət Bayrağı Meydanı salınmışdır. Hündürlüyü 51 metr olan dövlət bayrağının dalğalandığı həmin meydanda 2016-cı ilin oktyabrında yenidənqurma, restavrasiya işləri aparılaraq daha müasir görkəmə salınmışdır. Hazırda əzəmətli bayrağımız şəhərimizin bayraq meydanında vüqarla dalğalanır, hər bir qazaxlıya iftixar hissi yaşadır. Bu gün Azərbaycan bayrağı dünyanın ən uca bayrağıdır və bu, hər bir azərbaycanlıya fəxr və şərəf gətirir.

Yeni Azərbaycan Partiyası Qazax rayon təşkilatının sədri Həmid Pənahov, RİHB Aparatında aparıcı məsləhətçi-psixoloq Kəmalə Cəfərova, baş məsləhətçi Səba Paşayeva, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal, şəhər 1 saylı tam orta məktəbin tarix müəllimi Mustafa Mirzəyev və başqaları çıxış edərək Azərbaycan bayrağı haqqında öz fikir və arzularını bildirmişlər.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq tədbir iştirakçılarını bir daha səmimi qəlbdən təbrik etmiş, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da qüdrətlənməsi naminə uzun illər səmərəli fəaliyyət arzulamışdır.

17 NOYABR - MİLLİ DİRÇƏLİŞ GÜNÜDÜR

**Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov giriş sözü ilə çıxış edərək tədbir iştirakçılarını 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə səmimi qəlbdən təbrik etmiş, ən xoş arzularını çatdırmışdır. Qeyd etmişdir ki, 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin yeni tərkibdə ilk sessiyası muxtar respublikanın adından "Sovet Sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağının Dövlət Bayrağı kimi qəbul edilməsi barədə qərar qəbul etdi.**

## Milli Dirçəliş Günü münasibətilə tədbir keçirilmişdir




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünya birliyində özünə layiqli yer tutaraq söz sahibinə çevrilməsinə, Qafqazdakı lider rolunun möhkəmləndirilməsinə, enerji və nəqliyyat təhlükəsizliyinin davamlılığına, ərzaq təhlükəsizliyinin təmin olunmasına, güclü və qüdrətli ordu quruculuğuna, ölkə vətəndaşlarının xoşbəxt və firavan yaşayışının etibarlı şəkildə təmin edilməsinə nail olundu.

Sonra mövzu ətrafında RİHB Aparatının məsləhətçilərindən Ülviyyə Namazova, Asiman Poluoğlu, Səba Paşayeva, Hacıalı Məmmədov, Daş Salahlı kənd İƏD üzrə nümayəndə Tahir Hüseynli, BDU Qazax filialının baş müəllimi Mübariz Süleymanov, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin tədris işləri üzrə direktor müavini Nicat Göyüşov, Aşağı Əskipara kənd tam orta məktəbin direktoru Yaşar Əliyev çıxış edərək Milli Dirçəliş Günü münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, 28 il ərzində ölkəmizin qazandığı uğurlardan söz açmışlar.

Tədbirdə Qazax rayon İcra Hakimiyyəti başçısının birinci müavini Məmməd Alıyev və RİHB-nın şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Akif Vəliyevə Qazax rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanları təqdim olunmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq Azərbaycan xalqını və rayon sakinlərini 17 noyabr - Milli Dirçəliş Günü münasibətilə bir daha təbrik etmiş, gələcək işlərində uğurlar arzulamışdır.

**Nüşabə HÜSEYNOVA**

12 NOYABR - KONSTİTUSİYA GÜNÜDÜR

## 12 Noyabr - Konstitusiya Günü qeyd olunmuşdur




**Rayonumuzda 12 Noyabr - Konstitusiya Günü münasibətilə tədbir keçirilmişdir. Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq xalqımızı və tədbir iştirakçılarını bayram münasibətilə təbrik etmişdir.**

Bildirmişdir ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya müstəqil Azərbaycanın ilk, ümumillikdə isə respublikanın dördüncü Konstitusiyasıdır. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə xüsusi komissiya yaradılmış, Konstitusiya layihəsi ümumxalq müzakirəsinə çıxarılmış və 1995-ci il noyabrın 12-də referendumla müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur. Konstitusiya 5 bölmə, 12 fəsil və 158 maddədən ibarətdir.

Respublika Prezidenti İlham Əliyevin 2 aprel 2009-cu il tarixli "Azərbaycan Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması barədə sərəncamı məhz bu məqsədə xidmət etmişdir. Azərbaycanda vətəndaş hüquq və azadlıqlarının təminatında yeni mərhələnin əsasını qoymuş 2009-cu il mart ayının 18-də keçirilmiş referendum mühüm siyasi kampaniya olaraq respublikamızın demokratik islahatlara, vətəndaş cəmiyyəti yoluna sadiqliyini sübut edir. Bu referendumda Konstitusiyanın 28 maddəsində bu və ya digər dəyişikliklərin aparılması ümumxalq səsverməsinə təqdim olunmuş və qəbul olunmuşdur.

18 iyul 2016-cı il tarixində Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı layihəsi barədə sərəncam imzalamışdır. Layihəyə görə Azərbaycan Respublikasının Konstitusiyasının 42 maddəsinə 29 dəyişiklik təklif edilirdi. Həmin tarixlə Respublika Prezidentinin sərəncamı ilə "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi rəy verilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə göndərildi. 26 sentyabr 2016-cı il tarixli ümumxalq səsverməsinin (referendumun) nəticələri Azərbaycan vətəndaşlarının iqtidara olan dərin inamını bir daha əyani şəkildə nümayiş etdirmişdir. Bu, həm də Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa rəhbərliyi altında həyata keçirilən siyasi və iqtisadi islahatların ölkə vətəndaşları tərəfindən birmənalı dəstəklənməsinin və müdafiə olunmasının bariz nümunəsidir.

Mövzu ətrafında RİHB Aparatının məsul işçiləri Müşviq Pirverdiyev və Səba Paşayeva, Qazax Dövlət Sosial-İqtisadi Kollecin şöbə müdiri Elvira Əfəndiyeva, şəhər 1 saylı körpələr evi-uşaq bağçasının müdiri İradə Mustafayeva və başqaları çıxış etmişlər.

# “Ordumuz-qürurumuz,

## Qazax rayonunda Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Ordumuz-qürurumuz, xalqımız-dayağımız” devizi altında kütləvi vətənpərvərlik bayramı keçirilmişdir

**Vətən dünyaya göz açdığımız doğma od-ocaqdan, məndən, səndən, bizdən başlanır. Hər kəs öz sevgisi, məhəbbəti, varlığıyla Vətənini öz şəxsiyyətində, mənində yaşatmalıdır. Yaşatmalıdır ki, Vətən yaşasın. Vətənpərvərlik - özü üçün deyil, eli üçün yaşamaqdır, bu gün üçün deyil, gələcək üçün yaratmaqdır. Vətənpərvərlik bir insanın ölkəsinə duyduğu sevgi və bağlılığı, Vətənini sevmək və Vətən üçün hər cür fədakarlığa hazır olmaq hissləridir.**

























Müharibəyə cəlb edilmiş bir ölkədə bu gün hərbi vətənpərvərlik hisslərinin inkişaf etdirilməsinə və düzgün aşılanmasına daha çox ehtiyac var. Ölkəmizdə bu istiqamətdə həyata keçirilən tədbirlər cəmiyyətdə milli-mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişafına təkan verir.

Düşmənlə 168 km məsafədə yerləşən Qazax rayonu Vətənin müdafiəsi yolunda 283 şəhid verib. 7 igid oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. 7 kəndi bu gün də erməni işğalçılarının tapdağı altındadır. 5 kəndə isə düşmən tərəfindən mütəmadi olaraq atəş açılır.

Belə bir coğrafi şəraitdə yerləşən, 25 ildən çox bir vaxtda zorla müharibəyə cəlb edilən Qazax rayonunda vətənpərvərliklə əlaqədar tədbirlərin keçirilməsi zamanın tələbatından irəli gəlir. Qazax rayonunda Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Ordumuz-qürurumuz, xalqımız-dayağımız” devizi altında ölkəmizdə ilk dəfə keçirilən kütləvi vətənpərvərlik tədbiri də bu məqsədi daşıyır.

Tədbirin keçirildiyi Heydər Əliyev adına parkda indiyə qədər görünməmiş bir canlanma var idi. İnsan selindən tərpənmək olmurdu. Böyükdən tutmuş uşağa qədər, ağsaqqalından tutmuş cavana qədər on minlərlə rayon sakini buraya toplaşmışdı. Toplaşmışdı ki, vətən yolunda hər cür fədakarlığa, igidliyə hazır olduğunu, polad kimi möhkəm, nizamlı ordusuna arxa, dayaq durduğunu, xalqla ordunun bir olduğunu, vətənpərvərlik hisslərinin yüksəkliyini bir daha nümayiş etdirsin.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Ordumuz-qürurumuz, xalqımız-dayağımız” devizi altında keçirilən kütləvi vətənpərvərlik bayramında Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev, Azərbaycan Respublikası Müdafiə Nazirinin müşaviri Abdulla Qurbani, Milli Məclisin deputatı Ülviyyə Ağayeva, Milli Məclisin deputatı, iqtisadi siyasət komitəsinin üzvü, Azərbaycan Sosial Rifah Partiyasının sədri Xanhüseyn Kazımlı və sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov iştirak edirdilər.

Tədbir iştirakçıları “Fəxri qazaxlılar” parkına gəlmişlər. Sonra qonaqlar Şəhidlər Xiyabanına baş çəkərək memorialın önünə gül dəstələri qoymuş və şəhidlərin əziz xatirələrini yad etmişlər. Daha sonra qonaqlar tədbirin keçirildiyi Heydər Əliyev parkına gəlmiş, ulu öndərin abidəsi önünə tər gül dəstələri qoyaraq baş əyib öz ehtiramlarını bildirmişlər.

“Ordumuz-qürurumuz, xalqımız-dayağımız” devizi altında keçirilən tədbirin layihə rəhbəri Abdulla Qurbani giriş sözü ilə çıxış edərək tədbirin məqsəd və əhəmiyyətindən danışmış, tədbiri açıq elan etmişdir.

Ümummilli lider Heydər Əliyevin və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad olunduqdan sonra Dövlət Himni səslənmişdir.

“Azərbaycan fanforası” hərbi orkestr tərəfindən ifa olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazax və qazaxlılar haqqında çıxışı monitor vasitəsilə nümayiş etdirilmişdir.

Sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov təbrik nitqi ilə çıxış etmişdir.

Hörmətli qonaqlar və Doğma Azərbaycanımızın “Qərb qapısı” Qazax rayonunda, Azərbaycan-Ermənistan sərhəddində Vətən qarşısında əsgəri borcunu şərəflə yerinə yetirən əziz əsgərlərimiz!

Sizi və sizin timsalınızda Silahlı Qüvvələrimizin bütün şəxsi heyətini Qazax rayon İcra Hakimiyyətinin rəhbərliyi və Qazax ictimaiyyəti adından salamlayıram! Siz müasir, müstəqil respublikamızın Milli Ordusunda - Azərbaycan Ordusunda Vətənə, dövlətə, xalqa sədaqətlə xidmət edir, şərəfli, həm də çətin, məsuliyyətli xidmətinizdə qazandığınız uğur və nailiyyətlərlə ölkə rəhbərliyinin, qədirbilən xalqımızın, eləcə də öz valideynlərinizin etimadını doğruldursunuz.

Siz yaxşı bilirsiniz ki, 2018-ci ildə 100 illiyini dövlət səviyyəsində, ümumxalq bayramı kimi qeyd edəcəyimiz Azərbaycan Ordusu yarandığı gündən savaş meydanına atılaraq erməni-daşnak-bolşevik qüvvələrinə qarşı mübarizələrdə fədakarlıqlar göstərmişdir. Ağır sınaqlardan çıxmışdır. Bu yolda neçə-neçə şəhid vermişdir. Məhz bugünkü ordumuz Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun varisidir və bu varislik ənənələrinə həmişə sadiqdir. Ancaq hər kəs etiraf edər ki, bugünkü müasir Azərbaycan Ordusunun əsl qurucusu, memarı Azərbaycan dövlətinin müstəqilliyini bərpa etməsinə və onun inkişafına misilsiz töhfələr vermiş xalqımızın ümummilli lideri Heydər Əliyevdir.

Siyasi fəaliyyəti və təkrarolunmaz həyat yolu ilə yaddaşlarda əbədiyyət qazanmış ulu öndərimiz bütün sahələrdə olduğu kimi Azərbaycanın ordu quruculuğunda da yeni mərhələlərin əsasını qoymuşdur. Uzaqgörən dahi rəhbərimizin hələ ötən əsrin 70-ci illərində sovet sisteminin o zamankı tələbləri ilə uyğunlaşmayan təşəbbüs irəli sürərək indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratması tarixi hadisədir və Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz yenidən erməni təcavüzü ilə üzləşəndə analoqsuz bu xüsusi təyinatlı təhsil ocağının nə qədər böyük əhəmiyyət kəsb etdiyini, düşünülmüş bir siyasət olduğunu hamı dərk etdi. Həqiqətən ulu öndərimizin yaratdığı bu məktəb olmasaydı, mütəşəkkil Milli Ordumuz haqqında danışmaq belə mümkün deyildi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev haqlı olaraq demişdir ki, müasir mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Bu gün Azərbaycanın güclü ordusu vardır. Azərbaycan Ordusu qarşısında duran bütün vəzifələri həll etməyə qadir bir ordudur.





Ulu öndərimiz dönə-dönə deyərdi ki, Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək kimi müqəddəs vəzifəni yerinə yetirən Milli Ordu bütün xalqın övladıdır və onun formalaşmasına, inkişafına müntəzəm qayğı və diqqət göstərmək hər bir dövlət təşkilatının, yerli orqanların, özəl qurumların, hər bir Azərbaycan vətəndaşının borcudur.

Qazaxın müdafiəsində dayanan igid oğullarımız, bütün xalqımız kimi hər bir qazaxlı da sizinlə fəxr edir. Siz gecə bilmədən, gündüz bilmədən, şaxta bilmə-

# Xalqımız-dayağımız”

dən, isti bilmədən, yağmur bilmədən torpaqlarımızın keşiyində ayıq-sayıq dayanırsınız. Düşmən təxribatlarının qarşısını mərdliklə alır, qətiyyətli hərəkətlərinizlə düşmənin layiqli dərsini verirsiniz. Sizin sayənizdə bölgədə sakitlikdir, əmin-amanlıqdır. İnsanlar qurub-yaradır, əkinçilər əkib-becərir, həyat öz axımında davam edir. Hətta düşmənin beş metrliyində kəndlərdə belə sizə güvənən əhali daim atəş altında yaşamasına baxmayaraq, öz yurd-yuvasını tərk etmir. Qazaxlılar öz ordusuna inandıqları, ona güvəndikləri kimi, əziz əsgərlər, siz də arxanızda möhkəm dayanan xalqı görüb, daha da ruhlanır, fərəhlənirsiniz. Bunu biz bilirik və yüksək dəyərləndiririk.

Rayon rəhbərliyi, Qazax ziyalıları, məktəblilər, iş adamları, yaradıcı insanlar hər dəfə sizinlə görüşəndə yeni bir mənzərənin şahidi olurlar. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sayəsində əsgəri xidmət üçün hər cür şərait yaradılmışdır. Yeməkiçməyiniz, geyiminiz, silah-sursatınız, hərbi texnikalar ümumiyyətlə, maddi-texniki təchizat məsələləri yüksək səviyyədə həll olunur. Mənəvi-psixoloji hazırlığınız, döyüş ruhunuz, vətənpərvərlik















hissiniz çox yüksəkdir. Eşq olsun sizlərə, əziz əsgərlərimiz! Vətənin, torpağın keşiyində daha cəsarətlə, daha mətinliklə durun. Biz sizə arxalanırıq. Unutmayın ki, xalqımız qədirbilən xalqdır, sizin şücaətlərinizi layiqincə qiymətləndirir və bundan sonra da qiymətləndirəcəkdir.

Əbədiyaşar Ali Baş Komandanımız Heydər Əliyevin 1994-cü ilin yanvarında yeni yaranan hərbi hissənin şəxsi heyətini cəbhəyə yola salarkən dediyi sözləri sizə bir daha xatırladıram. O vaxt ulu öndərimiz demişdir: “Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmişsiniz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə xidmət edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır”.

Əziz qardaşlar, Azərbaycanın hansı bölgəsində xidmət etməyinizdən asılı olmayaraq, siz yaxşı bilirsiniz ki, Vətənin quzeyi, güneyi olmur, Vətən vətəndir və onun hər bir vətəndaşı bu vətəni göz bəbəyi kimi qorumalı, yeri gələrsə uğrunda canından, qanından keçməyə hazır olmalıdır.

Hər biriniz yaxşı bilirsiniz ki, Qazax Azərbaycanın təbiət etibarilə füsünkar, tarixcə qədim məskənlərindən, elm, mədəniyyət, ədəbiyyat ocaqlarındandır. Bu diyara elə-belə, “Şairlər Vətəni” deməyiblər ki. Bir anlığa unudulmaz xalq şairimiz Səməd Vurğunun “Azərbaycan” şeirini yada salın. Ulu öndərimiz Heydər Əliyevin həmin şeiri necə ürəkdən, qəhərlənərək söyləməsini xatırlayın. Bax, gərək siz də Azərbaycanımıza qəlbən belə bağlı olasınız. Vətənin hər qarışını övlad məhəbbəti ilə beləcə sevəsiniz və Azərbaycan uğrunda Ali Baş Komandanımızın istənilən əmrini hər an yerinə yetirməyə hazır olasınız. Biz bilirik ki, siz buna həmişə hazırsınız, Vətənin igid müdafiəçiləri!

Qazaxlılar son illər ordu quruculuğunda uğurla aparılan islahatları diqqətlə izləyir və hər bir yenilik, hər bir uğurlu addım bizi ruhlandırır. Bəlkə də heç vaxt ordu ilə xalq indiki kimi həmrəy, sarsılmaz olmamışdır. Doğurdan da xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Bu birlik, bu həmrəylik bundan sonra da davam etdiriləcəkdir.

Vətən əsgəri! Qazaxlılar bu bərəkətli torpaqları əkib-becərdikləri kimi onu qorumağı da bacarırlar. Yadda saxlayın ki, sizin xidmət etdiyiniz hərbi hissə 1992-ci ildə məhz Qazax könüllülərinin özünümüdafiə taborunun bazasında yaranmış, formalaşmışdır.

Qazax rayonu Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşlərdə 280-ə yaxın şəhid vermiş, neçə-neçə eloğlumuz döyüşlərdə öz sağlamlığını itirmişdir. Ancaq heç kim ruhdan düşməmişdir. “Vətən sağ olsun!” deyən şəhid valideynləri Şuşanın, Laçının, Xankəndinin və digər əzəli torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə inanmışlar.

2016-cı ilin Aprel döyüşləri biz qazaxlılara da əsl qələbə sevincini yaşatdı. Həqiqətən də Aprel döyüşləri dövlətimizin, ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini, vətənpərvərliyini göstərdi. Bu döyüşlər zamanı təkcə Qazax rayonu 3 nəfər şəhid verdi. Xalq şəhidləri böyük izdihamla son mənzilə uğurladı.

Qazax rayonu görkəmli sənətkarların beşiyi, qəhrəmanların diyarıdır. “Rus artilleriyasının Allahı” adlandırılan Əliağa Şıxlinski, ilk azərbaycanlı general topoqraf İbrahim ağa Vəkilov, ilk qırıcı təyyarəçi Fərrux ağa Qayıbov, Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyev, Azərbaycanın Milli Qəhrəmanları Rafiq Alıcanov, Əjdər Babayev, Şamoy Çobanov, Aqil Musayev, Alı Mustafayev, Mərifət Nəsibov, Firuddin Şamoyev və neçə-neçə qəhrəmanlar bu torpaqdan - sənin keşiyində dayandığın Qazax rayonundan pərvazlanmışlar. Qazax oğulları nəinki bu bölgədə, eləcə də Ağdərə, Tərtər, Ağdam, Goranboy, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər, Şuşa və digər rayonlar uğrunda da əsl fədakarlıq göstərmişlər.

Əsgər oğullar, unutmayın ki, milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər də ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik! Torpağı qorumasan, əkib-becərməyə, əkib-becərməsən qorumağa dəyməz. Ancaq yadınızda saxlayın ki, torpağın tarixinə bələd olmasan onu nə sevməyə, nə də qorumağa, əkib-becərməyə dəyməz.

Sizi boya-başa çatdıran valideynlərinizə minnətdarlığımızı bildirir və inanırıq ki, içdiyiniz hərbi anda sadiq qalaraq əsgəri xidmətinizi şərəflə başa vuracaq, Qazax səngərlərindən doğmalarınızın hüzuruna alnıaçıq, üzüağ və qələbə xəbərləri ilə dönəcəksiniz. Hər birinizə möhkəm cansağlığı, uzun ömür, əsgəri xidmətinizdə uğurlar və hər zaman qələbə sevinci arzulayıram.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev çıxış edərək Azərbaycan ordusunun qüdrətindən söz açaraq Silahlı Qüvvələrimizn dünyanın müasir texnika ilə təmin olunmuş ordularından biri olduğunu qeyd etmişdir. Bildirmişdir ki, bu gün ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə hər an hazırdır və qadirdir.

R.Əliyev Müdafiə Nazirinin əmri ilə təltif olunmuş bir qrup Qazax sakininə xatirə mükafatlarını təqdim etmişdir. Mükafatlar Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova, sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudova, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsala, əməkdar müəllim Xatın Hüseynxanovaya, hərbi hissə komandiri Fuad Ələkbərova təqdim olunmuşdur.

Sonra meydana çıxan xüsusi təyinatlılar nəyə qadir olduqlarını nümayiş etdirmişlər. Silahlı Qüvvələrin mahnı və rəqs ansamblının ifasında nümayiş olunan ədəbi-bədii xoreoqrafik kompozisiya tədbirə toplaşanlar tərəfindən alqışlarla qarşılanmışdır.

Hərbiçilərin oxuduğu “Ordumuz-qürurumuz, xalqımız-dayağımız” mahnısı tamaşaçılarda böyük qürur hissi oyatmışdır.

“Ali baş komandanın hər bir əmrinə hər an hazırıq” kompozisiyası öz mübarizliyi və vətənpərvərlik hisslərinin aşılanması nöqteyi-nəzərindən fərqlənmişdir.

Qazaxlı Milli Qəhrəmanların meydana gəlişi tamaşaçılarda kədər qarışıq bir qürur hissi oyatmışdır. Aktyorların ifasında səhnəyə Milli Qəhrəmanlardan Rafiq Alıcanov, Əjdər Babayev, Şamoy Çobanov, Alı Mustafayev, Firuddin Şamoyev, Aqil Musayev, Mərifət Nəsibov gəlmişlər. Qaratel Hacımahmudova səhnəyə çıxaraq igidləri Vətən tapdağı altında olan torpaqları azad etməyə səsləmişdir. Bir qədər sonra isə yaralı əsgər mahnı ifa edərək meydana çıxmışdır. Şair Barat Vüsal “Yarama torpaq tökün” şeirini ifa edərək əsgərin yarasına torpaq tökmüşdür.





Hərbiçilərin ifasında səslənən “İlhamla gedirik gələcəyə biz” mahnısı tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır.

Şəhid atasının dediyi “Lazım gələrsə döyüşə birinci mən gedərəm” sözləri izdihamda böyük bir coşqu yaratmışdır. “Dalğalanır ulu bayraq” mahnısının sədaları altında Qazaxdakı hərbi hissənin yaranmasının 25 illiyi qeyd olunmuşdur. Bu münasibətlə xidmətdə fərqlənən bir qrup əsgər və zabitə Qazax rayon İcra Hakimiyyətinin təsis etdiyi “Qazaxın müdafiəsində xidmətlərinə görə” medalları təqdim olunmuşdur. Medalları Rəcəb Babaşov təqdim etmişdir.

Sonra Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov “Qazax - xidmət etdiyin diyar” kitabının ilk nüsxəsini general-mayor Rasim Əliyevə təqdim etmişdir. Qeyd olunmuşdur ki, bu kitab Qazaxda hərbi xidmətdə olan əsgərlərə veriləcəkdir.

Sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin Aprel döyüşləri ilə əlaqədar çıxışı monitor vasitəsilə təqdim olunmuşdur.

Tədbir Silahlı Qüvvələrin mahnı ansamblının ifasında səslənən “Biz gedirik Qarabağa” mahnısı ilə başa çatmışdır.

**Elçin İSMAYIL**














# Xanlıqlar kəndində yeni bağça binası istifadəyə verilmişdir

**Respublikamızın hər yerində olduğu kimi, rayonumuzda da bütün sahələrlə yanaşı, azyaşlı körpələrin sağlam, hərtərəfli və düzgün böyüməsi, tərbiyə olunması üçün yeni uşaq bağçaları tikilir, əsaslı şəkildə yenidən qurulur, müasir inventar və avadanlıqlarla təmin olunur. Qazax şəhərində tikintisi başa çatdırılan 100 yerlik 1 saylı körpələr evi-uşaq bağçasının yeni binası, Daş Salahlı kəndində əsaslı şəkildə təmir olunan 2 və 3 saylı uşaq bağçaları, bu yaxınlarda Kosalar kəndində əsaslı şəkildə təmir olunaraq istifadəyə verilən 2 və 3 saylı körpələr evi-uşaq bağçaları körpə balaların müasir standartlara cavab verən şəraitdə böyümələri üçün həyata keçirilən tədbirlərin ən bariz nümunəsidir.**

Əsaslı şəkildə təmir olunaraq yenidən qurulmuş Xanlıqlar kənd körpələr evi-uşaq bağçasının açılışı olmuşdur. Açılış mərasimində Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Milli Məclisin deputatı Ülviyyə Ağayeva, RİHB Aparatının məsul işçiləri, idarə, müəssisə və təşkilat rəhbərləri, bağça müdirləri, müəllim və valideynlər, kənd sakinləri, mətbuat nümayəndələri iştirak etmişdir.



Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov açılış mərasimində çıxış edərək körpə fidanları, onların valideynlərini və müəllimləri, kənd sakinlərini bağçanın istifadəyə verilməsi münasibətilə səmimi qəlbdən təbrik etmiş, göz aydınlığı verərək ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, ölkəmizdə uşaqlara həmişə diqqət və qayğı göstərilir və onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı respublikamızda müxtəlif tədbirlər həyata keçirilir. Bu siyasətin əsasını ulu öndər Heydər Əliyev qoyub və bu gün də dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İcra Başçısı bildirmişdir ki, bu sahədə Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də gələcəyimiz olan uşaqların sağlam və xoşbəxt böyüməsi üçün hərtərəfli və məqsədyönlü işlər görülür.

Rəcəb Babaşov qeyd etmişdir ki, fəaliyyətə başladığım ilk gündən körpə balaların daha yaxşı şəraitdə təlim-tərbiyə almaları üçün əlimdən gələni etmişəm. Çalışmışam ki, bu gül balalar daha müasir standartlara cavab verən bağçalarda tərbiyə olunsunlar. Daş Salahlı və Kosalar kəndlərində, eləcə də Xanlıqlar kəndində açılışını etdiyimiz yeni bağça binalarının əsaslı şəkildə yenidən qurulması buna əyani sübutdur. Bundan sonra çalışacağam ki, digər kəndlərdə olan körpələr evi-uşaq bağçaları da əsaslı şəkildə yenidən qurulsun, rayonumuzda təmir olunmamış bağça qalmasın.

Milli Məclisin deputatı Ülviyyə Ağayeva tədbirdə çıxış edərək son 1 il yarım ərzində Qazax rayonunda aparılan tikinti-quruculuq və abadlıq işlərinin yüksək keyfiyyətlə və artan templə aparılmasından danışmışdır. Qeyd etmişdir ki, Qazax bu müddət ərzində durmadan inkişaf edərək öz görkəmini sözün yaxşı mənasında çox dəyişmişdir. Bunu rayonda inşa olunan sosial obyektlərin, müəssisələrin, məktəblərin, uşaq bağçalarının istifadəyə verilməsindən, eləcə də digər sahələrdə olan inkişafdan aydın şəkildə görmək olar. Sevindirici hal odur ki, bu inkişaf şəhərlə yanaşı, kəndlərdə də uğurla davam etdirilir. Xanlıqlar kəndində əsaslı təmir olunaraq istifadəyə verilən körpələr evi-uşaq bağçası da bunun əyani sübutudur.



Tədbirin aparıcısı, Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal Xanlıqlar kənd bağçasının əsasının bu kəndin yetirməsi olan xalq şairi Mirvarid Dilbazinin təşəbbüsü ilə qoyulduğunu qeyd etmişdir.

Sonra şair Zaməddin Ziyadoğlu, Bakı Dövlət Universiteti Qazax filialının direktoru, professor Vüsət Əfəndiyev, rayon Təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Xanlıqlar kənd körpələr evi-uşaq bağçasının müdiri Fəxrəndə Məmmədova, Ağköynək kənd tam orta məktəbin kimya müəllimi Sədaqət Əmirxanova, şəhər 1 saylı körpələr evi-uşaq bağçasının müdiri İradə Mustafayeva, valideynlərdən Xatın Hüseynxanova, Şayəstə Qurbanova, qonaqlardan Səbinə Yusif və başqaları çıxış edərək uşaqlar üçün yaradılan bu gözəl şəraitə görə Respublika Prezidenti İlham Əliyevə müəllim və valideynlər, bütün kənd sakinləri adından öz dərin minnətdarlıqlarını bildirmişlər. Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova ən xoş arzularını çatdırmışlar.

Sonra bağçada tərbiyə alan körpə fidanlar Vətən, Ana və Ordumuz haqqında şeirlər söyləmişlər.

Uşaq bağçası binasının rəmzi açılışını bildirən lent kəsildikdən sonra tədbir iştirakçıları əsaslı şəkildə təmir olunan bağça ilə tanış olaraq bağçanın dünənini və bu gününü özündə əks etdirən fotostendə baxmış, yataq otaqları, mətbəx, oyun otaqları, musiqi otaqları ilə tanış olmuşlar. Yeni bağçada yaradılan şərait tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdir.

Sonda Rəcəb Babaşov bir daha xeyir-dua verərək bağça kollektivinə səmərəli fəaliyyət arzulamış və ən xoş arzularını çatdırmışdır.

**Elçin İSMAYIL**

# Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illik yubileyi münasibətilə tədbir keçirilmişdir






**Rayonumuzda Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 25-ci ildönümü münasibətilə yubiley tədbiri keçirilmişdir. Tədbirdə partiya fəalları, şura üzvləri, gənclər təşkilatı və qadınlar şurası, idarə heyətinin üzvləri, ərazi ilk partiya təşkilatının sədrləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri, mətbuat nümayəndələri iştirak etmişdir.**

Tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin adını daşıyan parka gələrək ulu öndərin abidəsi önünə gül dəstələri qoymuş, əziz xatirəsini ehtiramla yad etmişlər.

Dövlət Himni səsləndikdən sonra tədbirdə giriş sözü ilə çıxış edən YAP Qazax rayon təşkilatının sədri Həmid Pənahov Azərbaycan dövlətçiliyinin inkişafında partiyanın xidmətlərindən danışmışdır. Qeyd etmişdir ki, ulu öndər Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Bu izlərdən biri də Yeni Azərbaycan Partiyasıdır. Azərbaycan Prezidenti İlham Əliyevin sədri olduğu YAP bu gün bizim qarşımızda xalqımıza, dövlətimizə sədaqətlə xidmət etmək, həyatda fəal olmaq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılmasında yaxından iştirak etmək kimi önəmli vəzifələr qoyur.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə çıxış edərək YAP-ın 25 illiyi münasibətilə başda partiyanın sədri İlham Əliyev olmaqla bütün partiya üzvlərini təbrik etmiş, ən xoş arzularını bildirmişdir. Qeyd etmişdir ki, YAP-ın güclü siyasi təşkilat kimi formalaşması, ölkəmizin ictimai-siyasi həyatında iqtidar partiyası kimi aparıcı yer tutması dövrün məntiqi reallığı idi. Heydər Əliyevin siyasi baxışlarından və siyasi fəlsəfəsindən səmərəli şəkildə bəhrələnməsi partiyanın qələbələr qazanmasını şərtləndirirdi. Bu gün YAP möhtərəm Prezidentimiz, partiyamızın sədri İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanır. Partiyamız ölkənin bugünkü sürətli inkişafında, respublikanın beynəlxalq nüfuzunun artmasında, bütün sahələrdə əldə olunan tərəqqidə xüsusi rola malikdir.

Rəcəb Babaşov bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti nəticəsində yaradılan YAP Azərbaycanın ictimai-siyasi həyatına daxil oldu və bununla Azərbaycanın tarixində yeni dövr başladı. Heydər Əliyevin rəhbərliyi və ideyaları əsasında qurulan YAP-ın 25 illik inkişaf tarixi göstərdi ki, Yeni Azərbaycan Partiyasını yaradanlar, bu partiyanın təməl daşını qoyanlar yeni müstəqil dövlətimizin siyasi-iqtisadi, sosial-mədəni inkişafının istiqamətini müəyyən etməklə öz seçimlərində yanılmamışlar. Azərbaycan xalqının istəkləri, cəmiyyətin sosial-iqtisadi sifarişləri YAP-ın konseptual strateji proqramında ana xətti təşkil edir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyamız yeni-yeni uğurlar qazanır.

YAP Qazax rayon təşkilatının Şura üzvü Abbas Göyüşov, YAP Qazax rayon təşkilatının sədr müavini Səfurə Vəliyeva, YAP Gənclər Birliyi Qazax rayon təşkilatının sədri Vüsal İsmayılov çıxış edərək partiyanın yaranma tarixi, onun keçdiyi şərəfli inkişaf yolu haqqında danışmışlar.

Şair Kazım Kazımlı yubileyə həsr etdiyi şeiri oxumuşdur.

Sonra partiya həyatında ictimai-siyasi aktivliyi ilə seçilən bir qrup partiya üzvünə Fəxri Fərmanlar təqdim olunmuşdur.

Tədbir bayram süfrəsi ətrafında davam etmişdir. Ansamblın və aşıqların ifasında səslənən musiqi proqramı tədbirə xüsusi gözəllik qatmışdır.

**Xuraman ƏZİMOVA**

# BDU-nun Qazax filialında "Qazax mahalının alimləri" kitabının təqdimatı olmuşdur

**Bakı Dövlət Universitetinin (BDU) Qazax filialında "Qazax mahalının alimləri" kitabının təqdimatı keçirilmişdir. Tədbirdə Qazax Xeyriyyə İctimai Birliyinin üzvləri, Bakıda yaşayan qazaxlı ziyalılar, şairlər iştirak etmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə iştirak etmək üçün BDU-nun Qazax filialına gəlmişdir.

Filialın direktoru, professor Vüsət Əfəndiyev təqdimat mərasimini giriş sözü ilə açaraq tədbirin məqsəd və əhəmiyyətindən danışmışdır.

Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Qazaxın ziyalılar rayonu olduğunu qeyd edərək belə bir kitaba böyük ehtiyac olduğunu bildirmişdir. "Qazax mahalının alimləri" kitabının nəşr olunması münasibətilə müəllifləri və bütün ziyalıları təbrik etmişdir. Qazaxlı elm adamları, ziyalıları haqqında bundan sonra da belə dəyərli kitabların yazılacağına əmin olduğunu bildirmişdir.

Tədbirin aparıcısı Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal kitabın mühüm əhəmiyyət daşıdığından söz açmışdır.



Kitabın müəllifləri - Salatın Əhmədli və Rövşən Babanlı çıxış edərək "Qazax mahalının alimləri" kitabının necə ərsəyə gəlməsindən söz açmışlar. Qeyd etmişlər ki, bu kitab zamanın tələbatından doğan və yaranan bir ensiklopedik məlumat mənbəyidir. Gələcək nəsillər onun əsasında Qazaxda anadan olmuş elm adamları haqqında bilgi əldə edə biləcəklər.

Sonra professor Məhəbbət Dəmirçiyev, Rüstəm Kamal, Hüseyn Xəlilov, Natəvan Dəmirçioğlu, Rafael İncəyurd, Zamədddin Ziyadoğlu çıxış edərək kitab haqqında öz fikir və arzularını bildirmişlər.

Sərbəst güləş üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Firdovsi Umudov ensiklopedik məlumat almaq üçün kitabın mühüm əhəmiyyət kəsb etməsindən danışmışdır.

Milli Məclisin deputatı Ülviyyə Ağayeva öz çıxışında Qazaxda elmə, təhsilə böyük diqqət və qayğı göstərildiyindən söz açaraq yeni kitabın məhz bu zəmində ərsəyə gəldiyini qeyd etmişdir. Bildirmişdir ki, Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun bütün sahələrlə yanaşı elm sahəsinə qayğı ilə yanaşması rayonda bu sahənin də inkişaf etməsinə böyük bir təkan vermişdir. Buna görə bütün çıxış edənlər kimi rayon rəhbərliyinə öz dərin minnətdarlığını bildirmişdir.

Qazax rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənova çıxış edərək "Qazax mahalının alimləri" kitabının çapdan çıxmasına görə müəlliflərə öz minnətdarlığını bildirərək bu münasibətlə bütün ziyalıları təbrik etmişdir.

Qeyd edim ki, "Qazax mahalının alimləri" 512 səhifədən ibarət ensiklopedik məlumat kitabıdır. Kitabda Qazaxda anadan olmuş 711 elm adamı haqqında məlumatlar yer almışdır. Ön sözün müəllifi akademik Teymur Bünyadovdur.

Sonra rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qonaqlarla birlikdə filialın yeni yaradılmış kimya və fizika laboratoriyalarına baxmışdır. Burada tələbələrə dərs keçmək üçün təşkil olunmuş yüksək səviyyəli şəraitdən razı qaldığını bildirmişdir.

# Milli Qəhrəman Aqil Musayevin doğum günü qeyd olunmuşdur

**Rayonumuzda Azərbaycanın Milli Qəhrəmanı Aqil Hüseyn oğlu Musayevin doğum günü ilə əlaqədar Şəhidlər Xiyabanında tədbir keçirilmişdir.**

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov tədbirdə iştirak etmək üçün Şəhidlər Xiyabanına gəlmişdir.

Aqil Musayevin ruhuna dua oxunduqdan sonra Xiyabandakı şəkli əks olunmuş lövhə önünə gül dəstələri qoyulmuş, əziz xatirəsi yad edilmişdir.

Giriş sözü ilə çıxış edən Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov Aqil Musayevin keçdiyi döyüş yolundan danışaraq Ölkə Başçısı İlham Əliyev tərəfindən şəhidlərə, onların ailələrinə göstərilən diqqət və qayğıdan söz açmışdır. Qeyd etmişdir ki, Vətənin bütövlüyü uğrunda öz canından keçən oğul və qızlarımız hər cür hörmət və diqqətə layiqdirlər. Şəhidlərimizi yad etmək, onların xatirəsini əziz tutmaq hər bir vətəndaşın ən ümdə vəzifəsidir.



Azərbaycan Yazıçılar Birliyi Qazax zona filialının sədri, əməkdar incəsənət xadimi, şair Barat Vüsal çıxış edərək bildirmişdir ki, Azərbaycanın Milli Qəhrəmanı Musayev Aqil Hüseyn oğlu 1974-cü il noyabrın 3-də Qazax rayonunun Aşağı Əskipara kəndində anadan olmuşdur. 1993-cü il mayın 18-də Milli Ordu sıralarına çağırılan A.Musayev Ağdam, Füzuli və Tərtər bölgələrində erməni işğalçılarına qarşı aparılan əməliyyatlarda fəal iştirak etmişdir. O, 1994-cü il oktyabrın 5-də Gəncə hadisələri zamanı qiyamçı dəstənin zərərsizləşdirilməsində iştirak edərkən qəhrəmancasına həlak olmuşdur. Respublika Prezidentinin fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Qarabağ Müharibəsi əlillərindən Vaqif Məmmədov, Namiq Alıyev, Qarabağ Müharibəsi veteranı, şəhid qardaşı Nəsib Nəsibov, şəhidin xalası Arifə Musayeva öz çıxışlarında Aqil Musayev haqqında öz xatirələrini söyləmiş, qəhrəmanlığından danışmışlar. Rayon rəhbərliyi tərəfindən Şəhidlər Xiyabanlarında aparılan bərpa və abadlıq işlərindən söz açaraq şəhid ailələri, müharibə veteranları adından minnətdarlıq etmişlər.

Sonra Aşağı Əskipara kənd tam orta məktəbin şagirdləri Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər söyləmişlər.

Sonda Milli Qəhrəmanın atası Hüseyn Musayev çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Ölkə Başçısı İlham Əliyevə şəhid ailələri adından, öz adından dərin minnətdarlığını bildirmişdir.

# Dünya kubokunun qalibləri ilə görüş



13-15 oktyabr tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilən Kyokuşinkay və Ciyutaido idman növləri üzrə kadet, yenieytmələr, gənclər, kişilər və qadınlar arasında Dünya kuboku yarışlarında Azərbaycan yığma komandası 35 nəfər idmançı ilə təmsil olunmuşdur.

Yarışda iştirak edən idmançılardan 2 nəfəri Azərbaycan Kyokuşinkay Karate və Ciyutaido Federasiyasının Qazax nümayəndəliyinin yetirmələridir. 9-10 və 11-13 yaşlılar arasında təşkil olunmuş yarışda rayonumuzun yetirməsi olan hər iki idmançı - Musayev Cavanşir Ramil oğlu və Mustafayev Məhəmməd Elşən oğlu 30 kq çəki dərəcəsində I yeri və qızıl medalı qazanaraq Dünya kubokunun qalibi adına layiq görülmüşlər.

Qazax RİHB Aparatında həmin idmançılarla görüş keçirilmişdir.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov idmançıları və onların müəllimini səmimi qəlbdən təbrik edərək daha böyük idman nailiyyətləri qazanmağı arzulamışdır. Qeyd etmişdir ki, ölkə başçısı İlham Əliyev bu gün respublikamızda idmana və idmançılara çox böyük diqqət və qayğı göstərir. Bu diqqət və qayğıdan ruhlanan rayonumuzun idmançıları nəinki respublika səviyyəli yarışlarda, eləcə də avropa və dünya miqyaslı çempionatlarda qələbələr əldə edirlər. Sizin qazandığınız uğur bunun bariz nümunəsidir.

Sonra Cavanşir Musayev və Məhəmməd Mustafayev yarış barədə öz təəssüratlarından söz açmışlar.

İdmançıların məşqçisi Anar Daşdəmirov yarış haqqında ətraflı məlumat verərək bildirmişdir ki, Azərbaycan milli yığma komandası 21 dövlətin iştirak etdiyi bu yarışda komanda hesabında I yeri tutmuşdur. Rusiya Federasiyası II, Türkiyə isə III yerdə qərarlaşmışlar.

Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov qalib idmançıları və məşqçi müəllimi qiymətli hədiyyələrlə mükafatlandırmışdır.

Görüşün sonunda xatirə şəkli çəkilmişdir.

**"GÖYƏZƏN"**

## İTMİŞDİR

**Əmiraslanova Yaylax Bayram qızının adına verilmiş MA 0228444 nömrəli, 14.07.2011-ci il tarixli ÇIXARIŞ və 005114 nömrəli, 14.07.2011-ci il tarixli torpaq sahəsinin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Qazax rayon İcra Hakimiyyəti Aparatının kollektivi Qazax rayon İcra Hakimiyyəti başçısının müavini Gulaya Həsənovaya atası

**ZİYAD HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

# Əlåddin İncəli



Əlåddin İncəli (Əlåddin Məhəmməd oğlu Həsənli) 1930-cu ildə Qazax rayonunun Kəmərli kəndində anadan olmuşdur. 1947-ci ildə Kəmərli kənd məktəbini bitirmişdir. 1951-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmişdir.

Ağdərə rayonunun Manikli kənd orta məktəbində dil-ədəbiyyat müəllimi və dərs hissə müdiri (1951-1954), 1954-cü ildən Qazax rayon qəzetində ədəbi işçi və şöbə müdiri (1954-1962), "Kommuna yolu" qəzetində ədəbi işçi, "Qalibiyyət bayrağı" ("Göyəzən") qəzetində ədəbi işçi və məsul katib, kənd təsərrüfatı şöbəsinin müdiri (1962-1966) və redaktor müavini (1971-1991) vəzifələrində, sonralar Qazax rayon partiya komitəsində təlimatçı, maarif şöbəsində metodist, rayon kino birliyində direktor (1966-1971), Qazax dram teatrında ədəbi hissə müdiri vəzifələrində çalışmışdır.

Redaksiyada işlədiyi illərdə "Əməkdə fərqlənməyə görə", "Rəşadətli əməyə görə", "Əmək veteranı" medalları ilə təltif olunmuşdur. Azərbaycan Jurnalistlər Birliyinin üzvü olmuşdur.

Əlåddin İncəli ədəbi yaradıcılığa 50-ci illərdə başlamışdır. Sovet hakimiyyəti illərində "Ceyran" (1970), "Gəl Kür qırağına" (1980) kitabları, "Gedin deyin Xançobana", "Əfsanə", "Nifaq alması" pyesləri, müstəqillik illərində isə "Əlvida, XIX əsr (2001), Salam, üçüncü minillik (2002), "Ömür istə", "Ömrün illəri", "Babam buyurdu", "Mərdi- mərdanə", "Yetişdim 80-nə, Vətən", "Söz incilərim", "Qarabağnamə", "O illər hanı", "Salam, İstanbul", "Yeddi güllə (nəşr), "Pyeslər", "Könül rübabım" (2014), "İllər, sizinəm" (2016) kimi şeirlər toplusu nəşr olunmuşdur.

Əlåddin İncəli 8 noyabr 2017-ci il tarixdə dünyasını dəyişmiş, Kəmərli kənd qəbiristanlığında dəfn olunmuşdur.

**Allah rəhmət eləsin.**

Baş redaktor:
ELÇİN İSMAYIL

TƏSİSÇİ:
QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN:
QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ:1200 SİFARİŞ: 3401

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
*Foto: Fəqan MƏHƏRRƏMOV*